# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ
# (ÇIXARIŞ)

M a d d ə 1 6 5 . **Müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma**

165.1. Müəlliflik hüququ və ya əlaqəli hüquq obyektlərindən qanunsuz istifadə etmə, yəni özgənin elmi, ədəbi, bədii və ya başqa əsərini öz adı ilə nəşr etdirmə və ya özgənin müəllifliyini başqa cür mənimsəmə, bu cür əsəri qanunsuz olaraq yenidən dərc etmə və ya yayma, habelə şərikli müəllifliyə məcbur etmə, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa—

*min manatdan iki min* manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.[i]

165.2. Eyni əməllər:

165.2.1. təkrar törədildikdə;

165.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə—

~~əmlakı müsadirə olunmaqla~~ *iki min manatdan dörd min* manatadək miqdarda cərimə və ya *iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[ii]

***Qeyd:*** [iii]

*Bu Məcəllənin 165-166-cı maddələrində "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür.*

M a d d ə 1 6 5 - 1 . **İnteqral sxem topologiyasından istifadəyə müstəsna hüququ pozma**[iv]

165-1.1. Müəllifin və ya digər hüquq sahibinin icazəsi olmadan inteqral sxem topologiyasının orijinal olmayan hissəsini cıxarma istisna olmaqla, bütövlükdə, yaxud onun hər hansı bir hissəsini inteqral sxemə daxil etmə yolu ilə və ya surətini başqa şəkildə cıxarma, habelə topologiyanın və ya həmin topologiyadan ibarət inteqral sxemi tətbiq etmə, gətirmə, satış üçün təklif etmə, satma, yaxud başqa formada təsərrüfat dövriyyəsinə daxil etmə, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa –

*min manatdan iki min* manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.[v]

165-1.2. Eyni əməllər:

165-1.2.1. təkrar törədildikdə;

165-1.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə -

*iki min manatdan dörd min* manatadək miqdarda cərimə və ya *iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[vi]

~~***Qeyd:** Bu Məcəllənin 165-1.1-ci maddəsində "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür*~~.[vii]

**Maddə 165-2. Folklor nümunələrindən istifadə tələblərinin pozulması** [viii]

165-2.1. Folklor nümunələrindən istifadə tələblərinin pozulması, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa

~~əmlakı müsadirə olunmaqla~~ *min manatdan iki min* manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.[ix]

165-2.2. Eyni əməllər:

165-2.2.1. təkrar törədildikdə;

165-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə -

~~əmlakı müsadirə olunmaqla~~ *iki min manatdan dörd min manatadək* miqdarda cərimə və ya *iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[x]

~~***Qeyd:** Bu maddədə "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür.*~~[xi]

**Maddə 165-3. Məlumat toplularından qeyri-qanuni istifadə** [xii]

165-3.1. Məlumat toplularından qeyri-qanuni istifadə, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa –

~~əmlakı müsadirə olunmaqla,~~ *min manatdan iki min* manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlərlə cəzalandırılır.[xiii]

165-3.2. Eyni əməllər:

165-3.2.1. təkrar törədildikdə;

165-3.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə -

~~əmlakı müsadirə olunmaqla,~~ *iki min manatdan dörd min* manatadək miqdarda cərimə və ya *iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki* ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.[xiv]

~~***Qeyd.** Bu maddədə "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür*~~.[xv]

**Maddə 166. İxtiraçılıq və patent hüquqlarını pozma**

166.1. İxtiraçılıq və patent hüquqlarını pozma, yəni ixtiradan və ya səmərələşdirici təklifdən qanunsuz istifadə etmə və ya ixtira yaxud səmərələşdirici

təkliflərin mahiyyəti barədə məlumatları müəllifin razılığı olmadan və rəsmi dərc edilənədək yayma, müəllifliyi mənimsəmə, şərikli müəllifliyə məcbur etmə, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa—

*min manatdan iki min* manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.[xvi]

166.2. Eyni əməllər:

166.2.1. təkrar törədildikdə;

166.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə—

*iki min manatdan dörd min* manatadək miqdarda cərimə və ya *ikiilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[xvii]

## M a d d ə 1 9 7 . **Əmtəə nişanlarından qanunsuz istifadə etmə**

197.1. Özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunması ~~təkrar törədildikdə və ya~~xeyli miqdarda ziyan vurduqda—[433]

*cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki* ilədək müddətə islah işləri və ya bir *ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[434]

197.2. Eyni əməllər külli miqdarda ziyan vurduqda—

*cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə* və ya üç ilədək *müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək* müddətə ~~azadlığın məhdudlaşdırılması və ya eyni müddətə~~ azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[435]

## M a d d ə 205-2. **Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı**[483]

205-2.1. Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşdursa -

*cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*[484]

205-2.2. Eyni əməllər:

205-2.2.1. təkrar törədildikdə;

205-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

205-2.2.3. külli miqdarda ziyan vurduqda -

*cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda* cərimə və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. [485]

---

[i] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165.1-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidi məbləğinin yüz mislindən beş yüz mislinədək**" sözləri "**yüz manatdan beş yüz manatadək**" sözləri ilə əvəz edilmişdir.

30 aprel 2013-cü il tarixli **640-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 iyun 2013-cü il, № 129; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 06, maddə 594)** ilə 165.1-ci, 165-1.1-ci, 165-2.1-ci, 165-3.1-ci, 166.1-ci, 167-ci, 175-ci, 243.1-ci və 306.1-ci maddələrin sanksiyalarında "**yüz altmış saatdan iki yüz qırx**" sözləri "**üç yüz iyirmi saatdan dörd yüz səksən**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165.1-ci maddənin sanksiyasında "**yüz manatdan beş yüz**" sözləri "**min manatdan iki min**" sözləri ilə əvəz edilmişdir.

[ii] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165.2.2-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək**" sözləri "**beş yüz manatdan min manatadək**" sözləri ilə əvəz edilmişdir.

28 oktyabr 2008-ci il tarixli 708-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 16 dekabr 2008-ci il, № 280, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 12, maddə 1047**) ilə 165.2-ci maddəsinin sanksiyasının əvvəlinə "**əmlakı müsadirə olunmaqla**" sözləri əlavə edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165.2-ci maddənin sanksiyasında "**beş yüz manatdan min**" sözləri "**iki min manatdan dörd min**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2017-ci il tarixli **816-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1968)** ilə 165.2-ci, 165-1.2-ci, 165-2.2-ci, 165-3.2-ci və 166.2-ci maddələrin sanksiyasında "**üç**" sözü "**iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki**" sözləri ilə əvəz edilmişdir.

[iii] 06 may 2016-cı il tarixli **230-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 may 2016-cı il, № 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 845**) ilə 165-ci maddəyə yeni məzmunda "Qeyd" hissəsi əlavə edilmişdir.

[iv] 7 noyabr 2003-cü il tarixli 512-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu

(**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003-cü il, № 12, maddə 676**) ilə Məcəlləyə yeni 165-1-ci maddə əlavə edilmişdir.

[v] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-1.1-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidinin yüz əlli mislindən beş yüz mislinədək**" sözləri "**yüz əlli manatdan beş yüz manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165-1.1-ci maddənin sanksiyasında "**yüz əlli manatdan beş yüz**" sözləri "**min manatdan iki min**" sözləri ilə əvəz edilmişdir.

[vi] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-1.2-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidinin beş yüz mislindən min mislinədək**" sözləri "**beş yüz manatdan min manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165-1.2-ci maddənin sanksiyasında "**beş yüz manatdan min**" sözləri "**iki min manatdan dörd min**" sözləri ilə əvəz edilmişdir.

[vii] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-1-ci maddənin "Qeyd"ində "**şərti maliyyə vahidinin min mislindən**" sözləri "**min manatdan**" sözləri ilə əvəz edilmişdir.

06 may 2016-cı il tarixli **230-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 may 2016-cı il, № 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 845**) ilə 165-1, 165-2, 165-3-cü maddələrin "Qeyd" hissələri ləğv edilmişdir.

[viii] 5 mart 2004-cü il tarixli 599-IIQD nömrəli "Azərbaycan folkloru nümunələrinin Hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 4, maddə 200**) ilə Məcəlləyə 165-2-ci maddə əlavə edilmişdir.

[ix] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-2.1-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidinin yüz əlli mislindən beş yüz mislinədək**" sözləri "**yüz əlli manatdan beş yüz manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165-2.1-ci maddənin sanksiyasında "**yüz əlli manatdan beş yüz**" sözləri "**min manatdan iki min**" sözləri ilə əvəz edilmişdir.

[x] 16 may 2008-ci il tarixli 607-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-2.2-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidinin**

**beş yüz mislindən min mislinədək**" sözləri "**beş yüz manatdan min manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165-2.2-ci maddənin sanksiyasında "**beş yüz manatdan min**" sözləri "**iki min manatdan dörd min**" sözləri ilə əvəz edilmişdir.

[xi] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-2-ci maddənin "Qeyd"ində "**şərti maliyyə vahidinin min mislindən**" sözləri "**min manatdan**" sözləri ilə əvəz edilmişdir.

[xii] 15 aprel 2005-ci il tarixli 885-IIQD nömrəli "Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 6, maddə 462**) ilə Məcəlləyə 165-3-cü maddə əlavə edilmişdir.

[xiii] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-3.1-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidinin yüz əlli mislindən beş yüz mislinədək**" sözləri "**yüz əlli manatdan beş yüz manatadək**" sözləri ilə əvəz edilmişdir.

7 mart 2012-ci il tarixli **314-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 15 mart 2012-ci il, № 60, "Azərbaycan" qəzeti 16 mart 2012-ci il, № 61, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 03, maddə 196)** ilə 165-3.1 və 165-3.2-ci maddələrin sanksiyasından "**əmlakı müsadirə olunmaqla,**" sözləri çıxarılmışdır.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165-3.1-ci maddənin sanksiyasında "**yüz əlli manatdan beş yüz**" sözləri "**min manatdan iki min**" sözləri ilə əvəz edilmişdir.

[xiv] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-3.2-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidinin beş yüz mislindən min mislinədək**" sözləri "**beş yüz manatdan min manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 165-3.2-ci maddənin sanksiyasında "**beş yüz manatdan min**" sözləri "**iki min manatdan dörd min**" sözləri ilə əvəz edilmişdir.

[xv] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 165-3-cü maddənin "Qeyd"ində "**şərti maliyyə vahidinin min mislindən**" sözləri "**min manatdan**" sözləri ilə əvəz edilmişdir.

[xvi] 16 may 2008-ci il tarixli **607-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454)** ilə 166.1-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidi**

**məbləğinin yüz mislindən beş yüz mislinədək**" sözləri "**yüz manatdan beş yüz manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 166.1-ci maddənin sanksiyasında "**yüz manatdan beş yüz**" sözləri "**min manatdan iki min**" sözləri ilə əvəz edilmişdir.

[xvii] 16 may 2008-ci il tarixli 607-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 7 iyun 2008-ci il, № 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 454) ilə** 166.2-ci maddənin sanksiyasında "**şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək**" sözləri "**beş yüz manatdan min manatadək**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **707-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 iyul 2017-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1268)** ilə 166.2-ci maddənin sanksiyasında "**beş yüz manatdan min**" sözləri "**iki min manatdan dörd min**" sözləri ilə əvəz edilmişdir.